**AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİ**

**P O L İ S A K A D E M İ Y A S I**

**KAFEDRA: "CİNAYƏT HÜQUQU"**

**FƏNN: "CƏZA-İCRA HÜQUQU"**

# M Ü H A Z İ R Ə

**MÖVZU № 1. "Cəza-icra hüququnun anlayışı, predmeti və sistemi."**

Vaxt - 4 saat
Mühazirə - 2 saat
Seminar - 2 saat


**TƏRTİB ETDİ:**

"Cinayət hüququ" kafedrasının müəllimi,
polis polkovniki, h.ü.f.d. **Rəsul Rüstəmov**

"Cinayət hüququ" kafedrasının müəllimi,
polis polkovnik-leytenantı **Şamxal Kərimov**


Mühazirə kafedranın iclasında müzakirə edilib və bəyənilib.

Protokol № 2017-ci il.

**B A K I - 2 0 1 7**

## MÖVZU №1. "Cəza-icra hüququnun anlayışı, predmeti və sistemi"

### P L A N:

**GİRİŞ:**

1. Cinayət cəzalarının icrası sahəsində dövlətin siyasəti.
2. Cəza-icra hüququ və hüquq sistemində onun yeri.
3. Cəza-icra hüququnun prinsipləri.
4. Cəza-icra hüququ elmi. Cəza-icra hüququ kursunun predmeti və sistemi.

**NƏTİCƏ**

### Ə D Ə B İ Y Y A T:


1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, 2017.
2. Azərbaycan Respublikasının CM. Bakı, 2017.
3. Azərbaycan Respublikasının CİM. Bakı, 2017.
4. «İnsan və vətəndaş hüquq və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında» AR Prezidentinin 22.02.1998-ci il tarixli Fərmanı.
5. "Məhkəmə nəzarətçiləri və məhkəmə icraçıları haqqında" Azərbaycan Respublikasının Qanunu. B., 1999
6. "İcra məmurları haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı,2011
7. Rəhimov.İ.M.Cinayət və cəzanın fəlsəfəsi. Bakı, 2014
8. . Rəhimov.İ.M.Cinayətkarlar və cəza. Bakı, 2015
9. İ.B.Ağayev Azərbaycan Respublikasının cəza-icra hüququ. Ümumi hissə. Bakı, 2007
10. İ.B.Ağayev Azərbaycan Respublikasının cəza-icra hüququ. Xüsusi hissə. Bakı, 2011
11. Cəza-icra hüququ. Şərhlər və sxemlər. Dərs vəsaiti. B., 2003. s.4-11.
12. Cəza-icra hüququ. Dərs vəsaiti. B., 2007. s.5-18.
13. M.Hümbətov. Məhkumun məlumat kitabı. B., 2003.
14. Уголовно-исполнительное право. Учебник. Под ред. В.И.Селиверстова. М., 2000. с.3-28.
15. Артаманов В.А. Наука советского исправительно-трудового права. М., 1974.
16. Пинчук В.И. Место исправительно-трудового права в системе советского права. Правоведение 1972. № 1. с. 60 .
17. Ременсон А. Л. Теоретические вопросы исполнения лишения свободы и перевоспитания осужденных. Автореферат. Томск, 1965.
18. Сергеевский В.А. Советская криминология и наука исправительно-трудового права. Рязань, 1977.
19. Стручков Н.А. Курс исправительно-трудового права. Проблемы Общей части. М., 1984.
20. Международная зашита прав и свобод человека. М., 1990. с.290.

# G İ R İ Ş

Hər bir hüquq sahəsi özünəməxsus norma və metodların köməyi ilə müəyyən qrup ictimai münasibətləri tənzimləyir. Belə hüquq sahələrindən biri də «Cəza-icra hüququ»dur.

«Cəza-icra hüququ» fənninin öyrənilməsi nəticəsində hər bir müdavim respublikamızın cəza-icra siyasəti, ayrı-ayrı cəzaların icrası və məhkumlara cinayət-hüquqi xarakterli digər tədbirlərin tətbiqi prosesində yaranan ictimai münasibətlərin hüquqi tənzimi məsələləri ilə, başqa sözlə, cəzaların icrası qanunvericiliyinin məqsəd və vəzifələri, məhkumların islah edilməsi vasitələri, məkumların hüquqi vəziyyəti, cinayət cəzalarını icra edən müəssisə və orqanlar, onların fəaliyyətinə nəzarət, ayrı-ayrı cinayət cəzalarının icrası qaydası və şərtləri, cəzadan azad etmənin əsasları və qaydası, cəza çəkməkdən azad edilmiş şəxslərə yardım və onların sosial adaptasiyası və s. barədə geniş biliklər əldə edir.

Biz bu mühazirəmizdə Azərbaycan Respublikasının cəza-icra siyasətindən, onu formalaşdıran və həyata keçirən subyektlərdən, "Cəza-icra hüququ"nu müstəqil hüquq sahəsi kimi xarakterizə edən əsas əlamətlərdən – fənnin predmetindən və metodundan, "Cəza-icra hüququ"nun hüquq sistemində tutduğu yerdən, bu hüquq sahəsinin prinsiplərindən, cəza-icra hüquq elmi və onun tədqiqat predmetindən ətraflı bəhs edəcəyik.

## Sual 1.

## Cəza-icra siyasəti və onun subyektləri

Ümumiyyətlə, siyasət - dövlətin hüquq sisteminin, qanunvericiliyin müxtəlif sahələrinin, onun fəaliyyətinin hüquqi formalarının və istiqamətlərinin əsasını təşkil edir. O, cəmiyyətin siyasi və hakimiyyət strukturlarının qarşılarına qoyduğu sosial məqsədlərə nail olmanın prinsiplərini, strategiyasını, əsas istiqamətlərini və formalarını əks etdirir. Bu siyasətin məqsədləri ümumi şəkildə Azərbaycan Respublikası Konstitusiyasının 16-cı maddəsində təsbit edilmişdir: **"Azərbaycan dövləti xalqın və hər bir vətəndaşın rifahının yüksəldilməsi, onun sosial müdafiəsi və layiqli həyat səviyyəsi qayğısına qalır".** Konstitusiyada təsbit olunmuş sosial siyasətin ümumi məqsədi onun həyata keçirilməsi üzrə dövlətin və onun orqanlarının fəaliyyətinin xarakterindən və istiqamətlərindən asılı olan mürəkkəb iyerarxiyaya malikdir.

Qeyd edilən istiqamətlərdən biri - cinayətkarlıqla mübarizə sahəsindəki siyasətdir. Bu siyasətdə cinayətkarlığa dövlət nəzarətinin vəzifələri, prinsipləri, strategiyası, əsas istiqamətləri, formaları və metodları əks olunmuşdur. O, Azərbaycan Respublikasının vətəndaşlarının mənafeyini ifadə etməli və onların hüquqlarının və qanuni mənafelərinin cinayətkar qəsdlərdən müdafiəsini təmin etməlidir. Konstitusiyaya əsasən insan, onun hüquq və azadlıqları ən ali dəyərdir. İnsanların və vətəndaşların hüquq və azadlıqlarının tanınması, onlara əməl olunması və onların müdafiəsi - dövlətin vəzifəsidir. Bu barədə Konstitusiyanın 12-ci və 26-cı maddələrində də birbaşa göstəriş var: **"İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi dövlətin məqsədidir"; "Dövlət hər kəsin hüquqlarının və azadlıqlarının müdafiəsinə təminat verir".**

Cinayətkarlıqla mübarizə sahəsində siyasət dövlətin, onun nümayəndəli orqanlarının və idarəçilik orqanlarının cinayətlərin və digər hüquq pozuntularının profilaktikası, onların törədilməsinin vaxtında qarşısının alınması, cinayət törətmiş şəxslərin məsuliyyətlərinin həyata keçirilməsi, məhkumlar barəsində cəzaların icrası və onların məqsədlərinə nail olunması üzrə fəaliyyətlərini istiqamətləndirir. Qeyd edilən sahədə dövlətin siyasəti çoxplanlıdır. Onu şərti olaraq cinayət siyasətinə, cinayətkarlığın profilaktikası sahəsində siyasətə və cəzaların icrası sahəsindəki siyasətə bölmək olar.

Özünün məqsədlərinə, prinsiplərinə və strategiyasına görə vahid olan cinayətkarlıqla mübarizə siyasətinin belə struktur bölgüsü şərtidir və onun ayrı-ayrı istiqamətləri öz aralarında birləşə bilər. Məsələn, cinayət siyasəti və cəzaların icrası sahəsində siyasət. Tez-tez cinayətlərin profilaktikasından postpenitensiar siyasət (cinayətkarlığın xəbərdarlığı) ayrılır. Lakin cinayətkarlqla mübarizənin müxtəlif sahələrində siyasətin həyata keçirilməsinin əsas forma və metodları bir-birindən fərqlənir və heç də həmişə cinayət-hüquqi təsir xarakterinə malik olmur. Buna baxmayaraq, məqsəd, prinsip və strategiya nöqteyi-nəzərdən bu siyasətin bəzi istiqamətləri vahiddir və bir-biri ilə sıx bağlıdır.

Cinayət siyasəti ilə cəzanın icrası sahəsindəki siyasət bir-birilə daha sıx əlaqədədir. Çünki cəzanın icrası sahəsindəki siyasət cinayət siyasətindən ayrılmışdır. Cinayət-hüquqi siyasət cinayətkarlığa cinayət-hüquqi xarakterli təsir tədbirlərini, cinayət məsuliyyətini, onun əsasını, məsuliyyətin fərdiləşdirilməsini, əməlin kriminallaşdırılmasını və dekriminallaşdırılmasını, cəzaların məqsədini, sistemini və növlərini, onların məzmununu, habelə cəzadan azad etmənin əsaslarını müəyyən edir. Cəzaların icrası sahəsində siyasət isə daha dar məna kəsb edir. O, cəzanın icrası ilə əlaqədar dövlətin fəaliyyətinin məqsədlərini, prinsiplərini, strategiyasını, istiqamətlərini, habelə bu fəaliyyətin forma və metodlarını müəyyən edir.

Eyni zamanda cəzaların icrası sahəsindəki siyasət də cinayət siyasətinə təsir göstərir. Bu, hər şeydən əvvəl cəzaların sisteminin və ayrı-ayrı cəza

növlərinin müəyyən edilməsinə, cəzaların təyini təcrübəsinə aiddir. Son nəticədə, cəzanın icrası sahəsindəki siyasət bütövlükdə cinayətkarlıqla mübarizə sahəsindəki siyasətə, xüsusilə də residiv cinayətkarlığın profilaktikası üzrə qərarların qəbuluna, cəza çəkmiş şəxslərin sosial adaptasiyasına (sosial şəraitə uyğunlaşmasına) və onlara yardım edilməsinə təsir edir.

Cəzaların icrası sahəsindəki siyasətin məzmununun təhlilinə keçərkən, öncə dərsliklərdə və hüquq ədəbiyyatında bu siyasətə münasibətdə istifadə edilən terminologiyanın üzərində dayanmaq lazımdır.

Qanunvericilik sahəsinin adına müvafiq olaraq o, əvvəllər "islah-əmək siyasəti" adlandırılırdı. Lakin o, XX əsrin 80-ci illərində cinayət cəzalarının sistemində aparılmış ciddi dəyişikliklərdən sonra özünün məzmununa artıq cavab vermədi. Çünki cinayət və islah-əmək qanunvericiliklərindən sürgün və köçürmə növündə cəzalar çıxarıldı, məhkumların islahı ön plana çəkildi, onların əməyindən istifadəyə münasibət tam dəyişdi.

Hal-hazırda qüvvədə olan qanunvericilik nöqteyi-nəzərdən islah təsiri tədbirləri tam həcmdə yalnız azadlıqdan məhrum etmə cəzasının icrası zamanı tətbiq edillir. Beləliklə, qüvvədə olan cəzaların icrası qanunvericiliyi normaları daha çox cəza-icra xarakteri daşıyır. Bundan başqa, "islah-əmək siyasəti"nin adı və hüququn müvafiq sahəsi ilk növbədə cəzanın icrası zamanı məhkumların əməyə cəlb olunmasını nəzərdə tuturdu. Bununla yanaşı, azadlıqdan məhrum etmə yerlərinin sisteminin əvvəlki tarixi göstərir ki, məhkumların əməyindən yalnız gəlir almaq məqsədilə istifadə etmək ideyası müəyyən mənada özünü doğrultmamışdır. Nəhayət, "cəza-icra hüququ" məfhumu Azərbaycan Respublikasında son illərdə qəbul edilmiş qanunvericilik aktlarında rəsmi surətdə işlənməyə başlanmışdır.

Beləliklə, cinayətkarlıqla mübarizə sahəsində siyasətin tərkib hissəsi olan cinayət cəzasının icrası sahəsindəki siyasət cəzanın icrasının təmini, məhkumların islah olunması, həm məhkumlar, həm də digər şəxslər tərəfindən yeni cinayətlərin törədilməsinin qarşısının alınması üzrə dövlətin fəaliyyətinin məqsədini, prinsiplərini, strategiyasını, əsas istiqamətlərini, forma və metod-

larını müəyyən edir. Göstərilən sahədəki siyasətin məqsədləri və prinsipləri daha sabitdir. Çünki onlar beynəlxalq ictimaiyyət tərəfindən işlənib hazırlanmış məhkumlarla davranışa həsr olunmuş müvafiq beynəlxalq aktlara, penitensiar (cəza-icra) elmin nailiyyətlərinə əsaslanır.

Cəzanın icrası sahəsində siyasətin strategiyası da kifayət qədər sabit olmasına baxmayaraq, o, iqtisadiyyatdakı, siyasətdəki, ideologiyadakı əsaslı dəyişikliklərlə əlaqədar dəyişə bilər. Son illərdə Azərbaycan Respublikasının qeyd edilən sosial sahədəki siyasətinin strategiyasında dəyişikliklər baş vermişdir. Bu insanların, o cümlədən, məhkumların hüquqlarına yeni siyasi mövqelərlə, cəmiyyətdə baş verən yeni iqtisadi münasibətlərlə, cəzaçəkmə müəssisələrinin istehsal fəaliyyətindəki mühüm dəyişikliklərlə, məhkumlarla tərbiyə işinin qeyri-siyasiləşdirilməsi ilə və s. şərtlənir.

Cinayət cəzalarının icrası sahəsində siyasətin strategiyasını, əsas forma və metodlarını, onun formalaşması və inkişafını birbaşa və ya dolayısı yolla sosial amillər kompleksi müəyyən edir. Bu sosial amillər içərisində mühüm yeri cəmiyyətin sosial-siyasi və iqtisadi vəziyyəti, burada hökmranlıq edən mənəvi dəyərlər və hüquqi təsəvvürlər, ölkədə cinayətkarlığın vəziyyəti və dinamikası, insan hüquqları və məhkumlarla davranışa həsr olunmuş müxtəlif beynəlxalq aktlar, beynəlxalq təşkilatların fəaliyyəti, fundamental elmin inkişafı tutur.

Cəmiyyətin sosial-siyasi nailiyyətləri, dövlətin qarşısına qoyduğu siyasi məqsədlərin dəqiqliyi, icra orqanları tərəfindən onların ardıcıl olaraq həyata keçirilməsi, sabit inkişaf, irimiqyaslı sosial münaqişələrin olmaması cinayət cəzalarının icrası sahəsindəki siyasətin məqsədlərinin və prinsiplərinin müvəffəqiyyətlə həyata keçirilməsi üçün əlverişli şərait yaradır.

Cəmiyyətin iqtisadi vəziyyəti cəza-icra siyasətinə bilavasitə təsir göstərir. İqtisadi cəhətdən qüdrətli olan dövlət öz qarşısına daha yüksək məqsədlər qoya bilər, strategiyasını daha əsaslı edə və bu strategiyanın həyata keçirilməsinin əsas forma və metodlarının siyasi amillərdən asılı olmadan müvəffəqiyyətlə yerinə yetirilməsi üçün zəruri maddi baza yarada bilər. İqtisadi böhran və əhalinin müflisləşməsi şəraitində isə, cəzaların icrası sahəsindəki cinayət

siyasəti cəmiyyətin iqtisadi vəziyyətindən çox asılıdır. Prinsiplər və onların həyata keçirilməsi arasında yaranan uyğunsuzluq son nəticədə onların həyati tələbata cavab verməməsinə gətirib çıxarır. Təsadüfi deyil ki, BMT-nin cinayətkarlığın qarşısının alınması və hüquq pozucuları ilə davranışa dair 1955-ci ildə Cenevrədə keçirilən birinci Konqresində qəbul edilmiş "Məhbuslarla minimal standart davranış qaydaları"nın İlkin qeydlərinin 2-ci bəndində qeyd edilmişdir ki, **"Hüquqi, sosial, iqtisadi və coğrafi şəraitin müxtəlifliyi nəzərə alınmaqla aydındır ki, bu qaydaların heç də hamısını hər yerdə və eyni vaxtda tətbiq etmək olmaz".**[1] Buna görə də cəzaların icrası sahəsində siyasətin strategiyasını formalaşdırarkən onun qarşısında real olmayan vəzifələri qoymaq olmaz.

Cəzaların icrası sahəsində siyasət daha çox cəmiyyətin mənəvi vəziyyətindən, onun hüquq düşüncəsinin səviyyəsindən asılıdır. Dövlət yüksək əxlaqi və hüquqi prinsipləri bəyan edə bilər, qanunvericilikdə təsbit edə bilər, lakin onlar cəmiyyətin bütün təbəqələri tərəfindən adekvat qəbul edilə və mənimsənilə bilməz. Müxtəlif sosial qruplarda bəyan edilən və təbliğ edilən mənəvi və hüquqi dəyərlərdən mühüm dərəcədə uzaqlaşma ola bilər. Bu uzaqlaşmanın dərəcəsi cəmiyyətin özündən asılıdır. Əgər o, sosial-siyasi cəhətdən əlverişli və sabitdirsə, belə ziddiyyətlər o qədər nəzərə çarpmır, onlar xeyli pərdələnir. Belə şəraitdə məhkumlara münasibət daha dözümlü, humanist olur ki, bu da dövlət hakimiyyəti və ictimai təşkilatlar vasitəsilə cinayət cəzalarının icrası sahəsində siyasətin strategiyasının, onun həyata keçirilməsinin forma və metodlarının formalaşmasına təsir göstərir.

Sosial münasibətlərin kəskinləşməsi ilə cəmiyyətin əxlaqi quruluşu zəifləyir. Bu da insanlar arasındakı münasibətlərin kəskinləşməsinə gətirib çıxarır, məhkumlara qarşı neqativ (mənfi) münasibəti formalaşdırır. Bütün bunlar cəzanın icrası sahəsində siyasətin formalaşmasına təsir edir. Bu siyasət daha sərtləşir və onun məqsədləri və prinsipləri isə demək olar ki, tamlıqla realizə olunmur.

---

**[1] Международная защита прав и свобод человека. Сб. документов. М., 1990, с.290; M.H.Hümbətov. Məhkumun məlumat kitabı. B.,2003. s.63.**

Cəzaların icrası sahəsində siyasətin strategiyasının formalaşmasına cinayətkarlığın dinamikası və strukturu da təsir göstərir. Əgər cinayətkarlığın səviyyəsi sabitdirsə və ya aşağı düşürsə, bu siyasət daha humanist xarakter daşıyır. Lakin cinayətlərin, xüsusilə də ağır, zorakı cinayətlərin sayının artması cəmiyyətdə əxlaqi və hüquqi təsəvvürlərə mənfi təsir göstərir, daha sərt siyasi və hüquqi qərarların qəbulunu şərtləndirir.

İnsan hüquqlarının müdafiəsi, məhkumlarla davranış haqqında beynəlxalq aktlar cəzanın icrası sahəsinə dövlətin siyasətinə ciddi təsir göstərir. Bu, hər şeydən əvvəl Azərbaycan Respublikası Konstitusiyasının 148-ci maddəsinin ikinci bəndinin tələblərindən irəli gəlir. Orada qeyd edilir ki, **"Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr Azərbaycan Respublikasının qanunvericilik sisteminin ayrılmaz tərkib hissəsidir.**"

1989-cu il Vyana sazişinin Yekun sənədində qeyd edilir ki, **"Avropada təhlükəsizlik və əməkdaşlıq təşkilatının bütün iştirakçıları həbsdə olan və ya cəza çəkən bütün şəxslərlə humanistcəsinə davranılmasını, onların ləyaqətinə hörmətlə yanaşılmasını təmin etməlidir".**[1] Azərbaycan Respublikası da özünün tərəfdar çıxdığı beynəlxalq sazişlərə əməl etməyi öhdəsinə götürmüşdür.

Cəzanın icrası sahəsində siyasətin formalaşmasına və inkişafına təsir edən amillərdən biri də elmin nailiyyətləridir. Elmin (kriminologiya, cinayət hüququ, cəza nəzəriyyəsi, cəza-icra hüququ) nailiyyətləri yalnız cinayətkarlıqla mübarizə problemlərini işləyib hazırlamır, həm də məhkumların islah edilməsi problemlərini tədqiq edir (misal üçün, islah psixologiyası və pedaqogikası). "Məhbuslarla minimal standart davranış qaydaları"nın İlkin qeydlərinin 1-ci bəndində qeyd edilir ki, **«aşağıdakı qaydalar nümunəvi həbs cəzası müəssisələri sistemini müfəssəl təsvir etmək məqsədi daşımayıb, yalnız müasir fikrin hamı tərəfindən qəbul edilmiş nailiyyətləri əsasında və hazırda daha qənaətbəxş olan sistemlərin başlıca elementləri nəzərə alınmaqla, adətən məhbuslarla davranış və**

---

**[1] 15 yanvar 1989-cu il tarixli Avropada əməkdaşlıq və təhlükəsizlik müşavirəsi iştirakçılarının-dövlətlərinin nümayəndələrinin Vyana görüşünün Yekun sənədi // Международная защита прав и свобод человека. Сб. документов. М., 1990. с.34.**

**həbsxana müəssisələrinin idarə olunması sahəsində prinsipial və praktik baxımdan düzgün sayılanları ifadə etmək üçün təxsis edilmişdir».[2]**

Cəza-icra siyasəti barədə daha ətraflı təsəvvür əldə etmək üçün həm də bu siyasətin subyektləi ilə tanış olmaq lazımdır. Bu subyektlər siyasəti formalaşdıran və həyata keçirən subyektlərə bölünür.

Cəzaların icrası sahəsində siyasətin formalaşmasının və inkişafının subyektləri Azərbaycan Respublikasının Milli Məclisi, Azərbaycan Respublikasının Prezidenti və Azərbaycan Respublikasının Nazirlər Kabinetidir.

Azərbaycan Respublikasının Milli Məclisi müvafiq qanunları, o cümlədən, cinayət və cəzaların icrası qanunvericiliklərini, amnistiya aktlarını və s. qəbul edərək, cinayətkarlıqla mübarizə məsələlərinə baxır və bununla da cinayət cəzalarının icrası sahəsində siyasətin formalaşmasına təsir edir.

Azərbaycan Respublikasının Prezidenti dövlətin daxili siyasətinin əsas istiqamətlərini müəyyən edir. Cinayətkarlıqla mübarizə sahəsində siyasət də (bunun da bir hissəsi cəzaların icrası sahəsindəki siyasətdir) dövlətin daxili siyasətinin tərkib hissəsidir. Bundan başqa, Respublika Prezidenti həm də əfv aktlarını qəbul edir.

Nəhayət, Nazirlər Kabineti də məhkumların saxlanılması qaydası və şərtləri, onların maddi-məişət təminatı barədə müvafiq aktları qəbul etməklə cəzaların icrası siyasətinin formalaşdırılması sahəsində öz töhfəsini verir. Belə aktlara misal olaraq, "Tərbiyə müəssisələrinin nəzdində Himayəçilik Şurasının işinin təşkili və fəaliyyət Qaydası"nı (Nazirlər Kabinetinin 2001-ci il 15 yanvar tarixli 16 saylı qərarı ilə təsdiq edilmişdir), "Müəyyən müddətə azadlıqdan məhrum etmə və ömürlük azadlıqdan məhrum etmə növündə cəzaya məhkum olunmuş şəxslərin əmək haqqının ödənilməsi Qaydası"nı (Nazirlər Kabinetinin 2001-ci il 15 yanvar tarixli 149 nömrəli qərarı ilə təsdiq edilmişdir) və s. aid etmək olar.

Cəza-icra siyasətini həyata keçirən subyektlərə aşağıdakılar aiddir:

- Ədliyyə Nazirliyinin Penitensiar xidməti;

---

**[2] M.H.Hümbətov. Yenə orada.**

- Ədliyyə Nazirliyinin Məhkəmə icraçıları Baş İdarəsi;
- Müdafiə Nazirliyinin hərbi hissələri və müəssisələri;
- cəzaları icra edən müəssisə və orqanlar (penitensiar müəssisələr);
- ictimai təşkilatlar.

Cəzaların icrası sahəsindəki siyasət müxtəlif formalarda, hər şeydən əvvəl isə cəzaların icrası qanunvericiliyi ilə həyata keçirilir. Hal-hazırda o, Cəzaların İcrası Məcəlləsində təsbit edilmişdir.

## Sual 2.
## Cəza-icra hüququ və hüquq sistemində onun yeri

Hüququn hər bir sahəsi, o cümlədən də cəza-icra hüququ özünün institutlarında və normalarında, bu və ya digər sosial sahədə dövlətin siyasətinin məqsədlərini, prinsiplərini, strategiyasını, istiqamətlərini, əsas vasitə və metodlarını təsbit edir. Cəza-icra hüququ da müvafiq olaraq cinayət cəzalarının icrası sahəsində dövlətin siyasətinin əsas müddəalarını təsbit edir. Bununla yanaşı hər hansı bir hüquq sahəsini dövlət siyasətinin passiv tənzimləyici qismində nəzərdən keçirmək olmaz. Onların hər biri siyasətin təsir edə bilmədiyi və təsir etməli olmadığı əsas müddəalara malikdir. Bunların sırasına hər şeydən əvvəl qanunun aliliyi aiddir. Bu baza müddəadır və konstitusion prinsip sayılır.

Cəza-icra hüququ xüsusi predmeti və hüquqi tənzimləmə metodu, habelə xüsusi, özünəməxsus normalar sistemi ilə xarakterizə olunan hüququn müstəqil bir sahəsidir. Əvvəllər ənənəvi olaraq qəbul edilirdi ki, hüququn bu sahəsinin predmetini islah-əmək təsiri tədbirlərinin tətbiqi ilə əlaqədar cinayət cəzalarının icrasının və çəkilməsinin qayda və şərtlərinin tənzimlənməsi təşkil edir. Bu birbaşa olaraq 1971-ci ilin iyun ayının 1-dən qüvvəyə minmiş İslah-Əmək Məcəlləsinin 2-ci maddəsindən irəli gəlirdi. İslah-əmək təsiri tədbirləri ilə əlaqədar olan cəza növlərinə azadlıqdan məhrum etmə, sürgün, köçürtmə

və azadlıqdan məhrum olunmadan islah işləri aid edilirdi. Azərbaycan Respublikasında yeni Cinayət və Cəzaların İcrası məcəllələri qəbul edildikdən sonra belə bölgöyə son qoyulmuşdur. Nəticədə cəza-icra hüququnun hüquqi tənzimləmə predmeti də mühüm dərəcədə dəyişmişdir. Buna görə də hazırki dövrdə hüququn bu sahəsinin tənzimləmə predmetinə cinayət qanunvericiliyində nəzərdə tutulan bütün cəzalarının icrasını aid etmək olar.

Əgər qanunda nəzərdə tutulan cəzaların icrası zamanı yaranan faktiki münasibətləri təhlil etsək, görərik ki, islah təsiri tədbirləri tam həcmdə yalnız azadlıqdan məhrum etmə növündə cəzanın icrası zamanı tətbiq edilir. Bu tədbirlər özünəməxsus formada həm də intizam xarakterli hərbi hissədə, xüsusi müəssisədə cəza çəkmə zamanı da tətbiq edilir. İslah işləri isə azadlıqda həyata keçirilir. Bu zaman məhkumlarla tərbiyə işinin aparılması işəgötürən tərəfindən həyata keçirilir.

Qüvvədə olan cəzaların icrası qanunvericiliyinin təhlili bizə aşağıdakı nəticəyə gəlməyə əsas verir: cəza-icra hüququnun predmetinə azadlıqdan məhrum etməyə məhkum olunmuşların və azadlıqdan məhrum etmə ilə əlaqədar olmayan cəzalara məhkum edilmiş şəxslərin saxlanıldığı və işlədikləri müəssisələrin müdiriyyətinin fəaliyyətinin tənzimlənməsi daxildir. Belə ki, Cəzaların İcrası Məcəlləsinin 47-ci maddəsi islah işlərinə məhkum edilmişlər barəsində cəzanın icrası yeri üzrə işəgötürənin vəzifələrini ətraflı şərh edir. Həmin maddəyə əsasən, müdiriyyətə aşağıdakı vəzifələr həvalə olunur:

- məhkəmə hökmünün məzmununu əmək kollektivinin nəzərinə çatdırmaq;
- iş yeri üzrə məhkumların davranışına nəzarət etmək və onlarla tərbiyə işinin aparılmasında məhkəmə icraçısına kömək etmək;
- məhkumların əmək intizamına riayət etməsinə nəzarət etmək, onlara ixtisaslarının artırılmasında kömək etmək;
- məhkum barəsində həvəsləndirmə və tənbeh tədbirlərinin tətbiq edilməsi və məhkumun cəza çəkməkdən boyun qaçırması, başqa işə keçməsi və ya işdən azad olması haqqında əvvəlcədən məhkəmə icraçısına məlumat vermək;

- məhkumun qazancından dövlət nəfinə tutulmaları düzgün və vaxtında aparmaq və tutulmuş məbləğləri müəyyən edilmiş qaydada dövlət nəfinə keçirmək.

Cəza-icra hüququnun predmetinə məhkumların islah olunması üzrə ictimaiyyətin fəaliyyət qaydasının tənzimlənməsi də aiddir.

Cəzaların icrası qanunvericiliyinin bir sıra normaları cəzaçəkmə müəssisələrinin müdiriyyətinin bu müəssisələrin ərazisində olan vətəndaşlara münasibətdə fəaliyyətini tənzimləyir, habelə bu vətəndaşların davranış qaydalarını müəyyən edir. Belə qaydalar müəssisəyə baş çəkməyə gəlmiş deputatlar, məhkumlarla görüşə gəlmiş şəxslər, məhkumların əməyindən istifadə olunan istehsal obyektlərində işləyən şəxslər barəsində nəzərdə tutulmuşdur.

**Cəza-icra hüququnun predmeti** dedikdə, bütün növ cinayət cəzalarının icrası və çəkilməsi, məhkumlara islah təsiri tədbirlərinin tətbiqi zamanı yaranan ictimai münasibətlər başa düşülür. Bu münasibətlərə aiddir:

- müxtəlif növ cəzaları icra edən müəssisə və orqanlarla məhkumlar arasında yaranan münasibətlər;

- məhkumların islah olunmasında ictimayyətin və əmək kollektivlərinin iştirakı ilə əlaqədar yaranan münasibətlər;

- cəzanın icrası zamanı cəza çəkənləri əməklə təmin etmiş müəssisə, idarə və təşkilatların müdiriyyəti ilə məhkumlar arasında yaranan münasibətlər;

- ayrı-ayrı cəza növlərinin icrası üzrə cəzanı icra edən müəssisə və orqanlarla ayrı-ayrı vətəndaşlar arasında yaranan münasibətlər və s.

Hüququn hər bir müstəqil sahəsi özünün predmetinə daxil olan ictimai mənasibətlərin hüquqi tənziminin xüsusi metoduna malikdir. Bu, onu xarakterizə edən əsas əlamətlərdən biridir. Bu əlamətin köməkçi olmasına baxmayaraq, o, subyektlər arasında yaranan ictimai münasibətlərin xarakterinə, onların hüquq və vəzifələrinin nisbətinə təsir edir. Cəza - dövlət məcburiyyət tədbiri olduğu üçün onun icrası hüquqi tənzimləmənin əsas metodunun - hüquq münasibəti subyektlərinin qeyri-bərabərliyini nəzərdə tutan imperativ

metodun xarakterini müəyyən edir. Lakin bu heç də digər hüquqi tənzimləmə metodlarının (məsələn, dispozitiv, həvəsləndirmə və s.) tətbiqini istisna etmir.

Hüquq nəzəriyyəsində hüquq sahəsinin müstəqilliyini xarakterizə edən əlamətlərdən biri kimi həmin hüquq sahəsinin xüsusi hüquq normaları sisteminə malik olması göstərilmişdir. Cəza-icra hüququnun da xüsusi normaları sistemi mövcuddur. Bura əsasən Cəzaların İcrası Məcəlləsinin normaları daxildir.

Cəza-icra hüququnda hüququn digər sahələrinə (cinayət, mülki, əmək, ailə və s.) məxsus olan bir sıra normalar var. Bu hal Cəza-icra hüququnu kompleks sahə kimi hesab etməyə əsas verir.[1] Lakin məlumdur ki, normaların resepsiyası (mənimsənilməsi) metodundan digər hüquq sahələrində (ailə, maliyyə, inzibati, əmək və s.) də geniş istifadə olunur. Bu metod hər şeydən əvvəl hüququn sistemliyini əks etdirir və onun sahələrinin, xüsusilə də qarışıq institutlarının və normalarının qarşılıqlı inkişafını təmin edən alətdir.

Cəza-icra hüququnda digər hüquq sahələrindən mənimsənilmiş normalar əsasən azadlıqdan məhrum etməyə məhkum olunmuşların hüquqi vəziyyətini (statusunu) tənzimləyir. Bu, onunla şərtlənir ki, cəza-icra hüququ fundamental (baza) hüquqa - konstitusiya hüququna münasibətdə törəmə sahədir.

Cəza-icra hüququ cinayətkarlıqla mübarizəni tənzimləyən cinayət və cinayət-prosessual hüquqların daxil olduğu hüquq sahəsinin ümumi kompleksinə daxildir. Bununla əlaqədar olaraq qeyd edilən kompleksdə cəza-icra hüququnun yeri, onun cinayət hüququ, cinayət-prosessual hüquqla qarşılıqlı əlaqəsi mühüm əhəmiyyət kəsb edir.

Cinayət hüququ və cəza-icra hüququ cəzanın tətbiqi və cəzadan azad edilmə zamanı yaranan ictimai münasibətləri tənzimləyir. Hüquqi tənzimləmənin bu sahəsində cinayət hüququ üstünlüyə malikdir. Cinayət hüququ məsuliyyətin və cəzanın anlayışını, məqsədlərini, növlərini, əsaslarını və cəzadan azad etmə əsaslarını müəyyən edir. Cəza-icra hüququ isə yalnız

---

[1] **Ременсон А. Л. Теоретические вопросы исполнения лищения свободы и перевоспитания осужденных. Автореф. Томск. 1965. с..55; Пинчук В.И. Место исправительно-трудовго права в системе советского права. Правоведение, 1972 № 1. с.60.**

cinayət cəzalarının icrası və çəkilməsi sahəsində yaranan ictimai münasibətləri tənzimləyir.

Cinayət və cəzaların icrası qanunvericiliklərinin müqayisəli təhlili bu sahələrin qarşılıqlı əlaqəsinin üç səviyyəsini ayırmağa imkan verir.

**Birinci**, ali səviyyədə bu hüquq sahələrinin məqsədlərinin, prinsiplərinin və ümumi müddəalarının vahidliyi təmin edilir (cəzanın məzmunu və icrası, cəzaçəkmə müəssisələrinin sistemi, cəzadan azad etmə). **İkinci** səviyyədə onların qarşılıqlı əlaqəsi mürəkkəbləşir. Cinayət hüququ konkret növ cəzaların icrasının və çəkilməsinin hüquqi tənziminin yalnız xarakterini müəyyən edir. O, konkret növ cəzaların mahiyyətini və məzmununu müəyyən edir. **Üçüncü** səviyyə isə, onunla şərtlənir ki, cinayət hüququ cəza-icra hüququnun ayrı-ayrı institutlarının inkişafı üçün yalnız ilkin normativ şərtlər yaradır. Məsələn, cinayət qanunu törədilmiş cinayətlərin ağırlıq dərəcəsi qiymətləndirməklə, məhkumlar tərəfindən cəzaların çəkilməsi şərtlərini müəyyən edir.

Cəza-icra hüququ cinayət-prosessual hüquqla da sıx əlaqədədir. Cəzanın icrası ittiham hökmünün icrasının tərkib hissəsidir və onun qanuni qüvvəyə minməsi ilə cəza-icra hüququ normaları həyata keçirilməyə başlayır. Cinayət-prosessual hüququ ədalət mühakiməsinin həyata keçirilməsinin təmin edilməsinə xidmət edir. Cəza-icra hüququ isə müəyyən mənada ədalət mühakiməsinin nəticələrinin həyata keçirilməsini təmin edir. Çünki cəza-icra hüququ hökmün cəza hissəsinin icrasını tənzimləyir.

Cəza-icra hüququ məhkumların hüquqi statusunun tənzimlənməsi zamanı konstitusiya hüququ ilə, cəzanı icra edən müəssisə və orqanların idarəçiliyi, bu orqanların əməkdaşlarının xidmət keçməsi, onlar tərəfindən məhkumlara fiziki güc, xüsusi vasitələr və silah tətbiq edilməsi sahəsində inzibati hüquqla, habelə mülki, ailə, maliyyə və qanunvericiliyin digər sahələri ilə sıx əlaqədədir.

Qeyd edilənləri ümumiləşdirərək, cəza-icra hüququna aşağıdakı kimi anlayış vermək olar. **Cəza-icra hüququ -** hüququn müstəqil bir sahəsi olub, bütün növ cinayət cəzalarının icrası və çəkilməsi və məhkumlara islah təsiri tədbirlərinin tətbiqi prosesində yaranan ictimai münasibətləri tənzimləyən

hüquq normalarının məcmusudur. Bu münasibətlərdə məhkəmə hökmlərini icra edən müəssisələr və orqanlar, ictimaiyyət və əmək kollektivləri, məhkumların işlədiyi müəssisə, idarə və təşkilatların müdiriyyəti, habelə ayrı-ayrı vətəndaşlar iştirak edir.

## Sual 3.
## Cəza-icra hüququnun prinsipləri

Cəza-icra hüququnun prinsipləri hüququn ümumi prinsiplərinə və cinayətkarlıqla mübarizəni tənzimləyən hüquq sahələrinin, xüsusilə də cinayət hüququnun prinsiplərinə əsaslanır. Buna görə də bu hüquqi kateqoriyanı xarakterizə edən müddəaları açıqlamaq lazımdır.

Ümumi hüquq nəzəriyyəsində **prinsip** dedikdə, hüququn əsas ideyaları, hüquq sisteminin rəhbər müddəaları başa düşülür. Hüquqi islahatların aparılması gedişində onlar xüsusi əhəmiyyət kəsb edir. Çünki bu zaman onlar normativ xassəyə malik olub, hüquq sahəsinin, onun institut və normalarının formalaşmasında məcburi xarakter daşıyır.

Hüququn, onun ayrı-ayrı sahələrinin prinsipləri özünün xarakterinə görə obyektivdir. Onlar eyni zamanda həm də subyektiv kateqoriya hesab olunur.

Hüququn prinsiplərinin obyektivliyi onunla müəyyən olunur ki, onlardakı əsas ideyalar həm hüququn konkret sahəsində, həm də hüquqtətbiqetmə fəaliyyətinin həyata keçirilməsində hökmən təcəssüm olunmalıdır. Onların pozulması cəmiyyətə mühüm əxlaqi ziyan vurur, bu zaman insan hüquqları və azadlıqları pozulur. Hüquqyaratma və hüquqtətbiqetmə fəaliyyətində hüququn prinsiplərinin pozulması cəmiyyət üçün arzu olunmaz nəticələrə gətirib çıxarır. Hüquq-mühafizə orqanlarının fəaliyyətində sosial ədalət, humanizm və qanunçuluq prinsiplərinin pozulması, törədilmiş əməlin ictimai təhlükəlilik dərəcəsinə və ağırlığına açıqdan-açığa uyğun gəlməyən cəza tədbirlərinin tətbiqi, məhkumlarla sərt davranış, insanlar arasındakı münasibətlərdə qəddarlığa və mənəvi dəyərlərin təhrif olunmasına səbəb olur.

Hüququn prinsiplərinin əsasında ümumbəşəri dəyərlər durur. Bunu bir çox beynəlxalq aktlar, o cümlədən də, 1948-ci il İnsan Hüquqları haqqında Ümumi Bəyannamə, 1966-cı il tarixli mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Pakt təsdiqləyir.[1] Bu aktlarda şəxsiyyətlə dövlət arasındakı münasibətlərin tənziminin ümumi prinsipləri qeyd edilmişdir.

Hüququn prinsiplərinin obyektivliyi onunla müəyyən olunur ki, onlar insanlar tərəfindən formalaşdırılır, sonra mənəvi postulatlar kimi ictimai şüur tərəfindən qəbul edilir və tərkib hissə kimi ideologiyaya daxil olur.

Qeyd edilən müddəalara əsaslanaraq cəza-icra hüququnun prinsiplərini nəzərdən keçirək. Bu prinsiplərdə hüququn ümumi prinsipləri, cinayətkarlıqla mübarizə aparan hüquq sahələrinin prinsipləri, habelə cəzaların icrası sahəsində dövlət siyasətinin prinsipləri öz əksini tapır. Bu prinsiplər məcmu halında hüququn bu sahəsinə xas olan sahəvi prinsiplər sistemini yaradır. Məcmu halında onlar cəza-icra hüququnun müstəqil sahə kimi hüquq sisteminə mənsubluğunu qeyd edir və eyni zamanda onun xüsusiyyətlərini əks etdirir.

Cəza-icra hüququnun prinsiplərinin sistemi müvafiq beynəlxalq aktlarda qeyd olunmuş məhkumlarla davranış prinsiplərinin sisteminə müvafiqdir. Bu prinsiplərin öz əksini tapdığı aktlara aşağıdakıları misal göstərə bilərik: BMT-nin 1955-ci il tarixli "Məhbuslarla minimal standart davranış qaydaları"; BMT-nin 1984- cü il tarixli "Bütün şəxslərin işgəncədən və digər qəddar, sərt və ya şəxsiyyəti alçaldan cəzalardan və rəftardan müdafiəsi haqqında Bəyannamə"si; BMT-nin 1989-cu il tarixli "Hər hansı formada tutulub saxlanan və həbs edilən bütün şəxslərin müdafiəsi prinsiplərinin məcmusu"; Avropa Şurasının 2006-cı il tarixli Avropa Penitensiar Qaydaları və s. Bu aktlarda təsbit edilən prinsiplər azadlıqdan məhrum olunmuş insanların əsas hüquqlarından bəhs edir. Bu hüquqlar milli qanunvericiliklərdə təsbit edilməli və hüquqtətbiqetmə fəaliyyətində onlara riayət olunmalıdır. Hətta müstəsna

---

[1] **Beynəlxalq sənədlər toplusu. I cild. B., 2005.**

hallar da belə işgəncə və digər qəddar, qeyri-insani davranış üçün əsas ola bilməz.

Cəza-icra hüququnun prinsiplərinin sistemi Azərbaycan Respublikasının Konstitusiyasına əsaslanır. Çünki Konstitusiyada təsbit edilən prinsiplər və ümumi müddəalar, ilk növbədə insan hüquqlarını və azadlıqlarını müəyyən edən prinsiplər və müddəalar birbaşa qüvvəyə malikdir.

Cəza-icra hüququnun prinsipləri üç növə bölünür: ümumhüquqi, sahələrarası və sahəvi prinsiplər. Ümumhüquqi prinsiplərə qanunçuluq, humanizm və demokratizm, sahələrarası prinsiplərə cəzanın icrasının fərdiləşdirilməsi, məhkumların qanun qarşısında bərabərliyi, sahəvi prinsiplərə isə məcburetmə tədbirlərindən və məhkumların islah edilmə vasitələrindən məqsədəuyğun istifadə edilməsi, onlarda qanuna itaətin həvəsləndirilməsi, cəzanın islahedici təsirinin artırılması aiddir.

**Qanunçuluq prinsipi** konstitusion prinsipdir və Azərbaycan Respublikasının Konstitusiyasının bir çox maddələrində, habelə yuxarıda qeyd edilən bəzi beynəlxalq aktlarda təsbit olunmuşdur. Cəza-icra hüququnda bu prinsip cəzanın icrasını nizama salan qanunun aliliyinin təmin edilməsində ifadə olunur. Qanunçuluq prinsipi cəzanı icra edən müəssisə və orqanlar, onlarla qarşılıqlı əlaqədə olan təşkilatlar, idarələr, müxtəlif təsərrüfat subyektləri, vəzifəli şəxslər, əlaqədar təşkilatların işçiləri, məhkumların mühafizəsini həyata keçirən hərbi qulluqçular, məhkumların islah olunmasında iştirak edən ictimai təşkilatlar, cəza çəkmə yerlərinə gəlmiş ayrı-ayrı vətəndaşlar və məhkumların özləri tərəfindən cəzaların icrası qanunvericiliyinə dəqiq və dürüst əməl olunmasında ifadə olunur. Bu prinsip ümumi şəkildə Cəzaların İcrası Məcəlləsinin hər hansı bir maddəsində təsbit olunmasa da, Məcəllənin məhkumların hüquqi vəziyyətini müəyyən edən maddələrində, cəzanı icra edən müəssisə və orqanların fəaliyyətinə nəzarətin sistemini və formalarını müəyyən edən maddələrində ona geniş yer verilmişdir.

Cəza-icra hüququnun **humanizm prinsipi** cəzanın icrasını nizama salan Cəzaların İcrası Məcəlləsinin və digər qanunların bir çox institutlarında və

normalarında əks olunmuş, insan hüquqları və məhkumlarla davravnış haqqında bir çox beynəlxalq aktlarda təsbit olunmuşdur. Belə ki, "Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Pakt"ın 10-cu maddəsində bu prinsip belə ifadə olunmuşdur: **"Azadlıqdan məhrum olunmuş bütün şəxslər insani davranış və insan şəxsiyyətinə məxsus ləyaqətə hörmət hüququna malikdirlər".**

CİM-in 3.3-cü maddəsində qeyd edilir ki, "Cəzaların İcrası Məcəlləsi Azərbaycan Respublikasının Konstitusiyasına və beynəlxalq hüququn prinsip və normalarına uyğun olaraq məhkumlarla rəftarda işgəncə, başqa qeyri-insani və şəxsiyyəti alçaltmağa yol verilməməsinə ciddi riayət olunmasına əsaslanır". Humanizm prinsipi həm də dövlət tərəfindən cəzanın icrası zamanı qarşıya qoyulmuş məhkumları islah etmək, onları tamhüquqlu bir üzv kimi cəmiyyətə qaytarmaq kimi məqsədlərdə ifadə olunur.

**Demokratizm prinsipi** cəza-icra hüququnun bir çox institutlarının və normalarının mahiyyətini əks etdirir. Hər şeydən əvvəl o, məhkumun hüququn bu sahəsinin subyekti qismində tanınmasında realizə olunur. "Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Pakt"da qeyd olunur ki, "harada olmasından asılı olmayaraq hər bir insan özünün hüquq subyektliyinin tanınması hüququna malikdir"[1]. Bu müddəanın sosial əhəmiyyəti ondan ibarətdir ki, məhkumun, xüsusilə də, azadlıqdan məhrum etməyə məhkum edilmiş şəxsin hüquqları mühüm dərəcədə məhdudlaşır və buna görə də onun müvafiq sosial müdafiəyə ehtiyacı olur. Demokratizm prinsipi məhkumların islah olunması prosesinin mahiyyətində, cinayət cəzalarını icra edən müəssisə və orqanların fəaliyyətinin aşkarlığında, cəzanı icra edən orqanların fəaliyyətinə nəzarətdə ifadə olunur.

Qeyd etdiyimiz kimi cəza-icra hüququnun sahələrarası prinsiplərinə **məhkumların qanun qarşısında bərabərliyi prinsipi** aiddir. Məhkumların qanun qarşısında bərabərliyi prinsipi cəzaların icrası qanunvericiliyində birbaşa təsbit olunmamışdır. Lakin CİM-in 9-cu maddəsində qeyd edilir ki, cəzaların icrası zamanı məhkumlara dair Azərbaycan Respublikasının Cinayət və Cinayət-

---

[1] **Международная защита прав и свобод человека. Сборник документов. М., 1990. С.40.**

Prosesual məcəllələri, bu Məcəllə və digər qanunvericilik aktları ilə müəyyən edilmiş məhdudlaşmalarla və istisnalarla, onların Azərbaycan Respublikası vətəndaşlarına mənsub olan hüquq və azadlıqlarına təminat verilir. Məhkumlar qanunvericiliklə müəyyən edilmiş hallar istisna olmaqla, hüquq və azadlıqlardan irəli gələn vəzifələr daşıyırlar.

Məhkumların qanun qarşısında bərabərliyi prinsipi ümumhüquqi prinsip olan vətəndaşların qanun qarşısında bərabərliyi prinsipindən törəmədir. Bu prinsip də CİM-in 7-ci maddəsində təsbit edilmişdir.

Azərbaycan Respublikası Konstitusiyasının 25-ci maddəsinin III bəndində deyilir ki, **«dövlət irqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə təminat verir. İnsan və vətəndaş hüquqlarını və azadlıqlarını irqi, milli, dini, dil, cinsi, mənşəyi, əqidə, siyasi və sosial mənsubiyyətə görə məhdudlaşdırmaq qadağandır».** BMT-nin «Məhbuslarla minimal standart davranış qaydaları»nın 6-cı maddəsində qeyd edilir ki, **«irqə, dərinin rənginə, cinsə, dilə, dinə, siyasi və digər əqidəyə, milli və sosial mənşəyə, anadan olmaya, iqtisadi və ya digər statusa əsaslanan əlamətlərə görə ayrı-seçkiliyə yol verilmir».** Bu tələb Avropa Penitensiar Qaydalarının 13-cü maddəsində də öz əksini tapmışdır: **«Bu Qaydalar irqə, dərinin rənginə, cinsə, dilə, dinə, siyasi və digər əqidəyə, Milli və sosial mənşəyə, doğulduğu məkana, iqtisadi statusa əsaslanan əlamətlərə görə ayrı-seçkiliyə yol verilmədən və qərəzsiz tətbiq edilir».**

Konstitusiya müddəalarına və beynəlxalq qaydalara müvafiq olaraq CİM cinsindən, irqindən, milli, dini və siyasi mənsubiyyətindən, sosial mənşəyindən, əmlak vəziyyətindən və s. asılı olaraq məhkumlar üçün hər hansı bir üstünlük müəyyən etmir. Bununla yanaşı, məhkumların qanun qarşısında bərabərliyi heç də cəza çəkmə şərtlərinin bərabərliyini bildirmir. Bildiyimiz kimi, cəza çəkmə şərtləri yaşdan, sağlamlıq vəziyyətindən, cinsdən asılı olaraq differensiasiya edilir. Məsələn, beynəlxalq müddəalara (məsələn, «Pekin qaydaları»na)

müvafiq olaraq, yetkinlik yaşına çatmamışlar üçün daha güzəştli saxlanma şəraiti müəyyən edilir. I və II qrup əlillər, qocalar, qadınlar üçün də bəzi güzəştlər təqdim edilir. Bundan başqa, cəzanın çəkilməsi şərti törədilmiş cinayətin xarakterindən və ictimai təhlükəlilik dərəcəsindən və məhkumların davranışından da asılıdır.

**Cəzanın icrasının fərdiləşdirilməsi prinsipi** cinayət hüququnun məsuliyyətin fərdiləşdirilməsi prinsipindən törəmədir. Cəza-icra hüququnda bu prinsip cəzanın icrasının və çəkilməsinin fərdiləşdirilməsində ifadə olunur.

Cəzanın icrasının fərdiləşdirilməsi prinsipi məhkumun şəxsiyyətinin qrup deyil, fərdi xüsusiyyətlərinə əsaslanır. Bu xüsusiyyətələr cəzanın çəkilməsi zamanı nəzərə alınır. Belə ki, CİM-in 8.3-cü maddəsində qeyd edilir ki, məhkumların islah edilmə vasitələri cəzanın növü, törədilmiş cinayətin ictimai təhlükəlilik dərəcəsi və xarakteri, habelə məhkumun şəxsiyyəti və davranışı nəzərə alın-maqla tətbiq edilir.

Cəzanın icrasının fərdiləşdirilməsi prinsipi davranışından asılı olaraq, həvəsləndirmə və tənbeh tədbirlərinin tətbiqi zamanı məhkumun hüquqi vəziyyətinin dəyişdirilməsi yolu ilə həyata keçirilir.

Cəzaların icrasını tənzimləyən qanunvericilikdə ilk dəfə olaraq məcburetmə tədbirlərindən və məhkumların islah edilmə vasitələrindən məqsədəuyğun istifadə edilməsi, onlarda qanuna itaətin həvəsləndirilməsi kimi mühüm prinsip öz əksini tapmışdır.

**Məcburetmə tədbirlərindən məqsədəuyğun istifadə edilməsi prinsipi** məhkumların məsuliyyətini müəyyən edən normalarda (CİM-in 78-ci və 94-cü maddələri), tənbeh tədbirlərini, onların tətbiq edilməsi şərtlərini və qaydasını müəyyən edən normalarda (CİM-in 107-ci və 109-cu maddələri) təsbit edilmişdir. Qanun bu tədbirlərin tətbiqi zamanı xətanın törədilməsi şəraitini, məhkumun şəxsiyyətini və onun tərəfindən cəzanın çəkilməsi müddəti ərzindəki davranışının nəzərə alınmasını tələb edir. CİM-in 109.1-ci maddəsinə əsasən tətbiq edilən tənbeh pozuntunun xarakterinə və ağırlıq dərəcəsinə müvafiq olmalıdır.

**Qanuna itaətin həvəsləndirilməsi prinsipi** də CİM-də yalnız təsbit edilməmiş, eyni zamanda qanunun bir çox normalarında öz əksini tapmışdır. Bu normalar ilk növbədə həvəsləndirici (mükafatlandırıcı) normalardır. Misal üçün, CİM-in 50, 60, 107, 113.3, 113.5, 117.2, 121.4, 122.2, 124.3, 124.5-ci maddələri. Müəyyən müddətə azadlıqdan məhrum etmə cəzasına münasibətdə məhkumların saxlanma şəraitinin yaxşılaşdırılmasını tənzimləyən həvəsləndirici normalar mühüm rol oynayır. Məcəllənin, məhkumların müşayiətsiz gediş-gəlişini, cəzaçəkmə müəssisəsinin hüdudlarından kənara qısa müddətli səfərlərini nəzərdə tutan normaları da həvəsləndirici normalardır (CİM-in 87-89-cu maddələri).

Ümumiyyətlə, cəza-isra hüququnun prinsipləri bir-biri ilə sıx əlaqədədir və buna görə də cinayət cəzalarının icrası, məhkumların islah edilməsi prosesində hüquqtətbiqedici onlara kompleks şəkildə yanaşmalı, öz fəaliyyətini bu prinsiplər əsasında qurmalıdır.

**Sual 4.**

**Cəza-icra hüququ elmi. Cəza-icra hüququ kursunun predmeti və sistemi**

«Cəza-icra hüququ» elmi hüquq sahəsinə müvafiqdir və cinayət cəzalarının icrası sahəsində meydana çıxan sosial-siyasi, iqtisadi, mənəvi, psixoloji-pedoqoji problemlərin bütün kompleksini öyrənir, məhkəmə hökmlərinin icrası üzrə hüquqtətbiqetmə fəaliyyəti prosesində yaranan Qanunauy-ğunluqları aşkar edir, qanunvericiliyin bu sahəsinin və onun tətbiqi təcrübəsinin təkmilləşdirilməsi üzrə öz təkliflərini təqdim edir. «Cəza-icra hüququ» elmi həm də cinayət cəzalarının icrası sahəsində dövlətin siyasətini, Azərbaycan Respublikasının cəzaların icrası qanunvericiliyinin və cəzanı icra edən müəssisə və orqanların inkişaf tarixini, hüququn bu sahəsinin normalarının strukturunu, qanunvericilik sistemini və onun mənbələrini, hüquq münasibətlərini, xarici ölkələrin cəza-icra hüququnu, məhkumlarla davranış haqqında beynəlxalq aktları öyrənir və tədqiq edir.

«Cəza-icra hüququ» elminin metodoloji əsasını ümumi idrak metodu olan fəlsəfə təşkil edir. Fəlsəfə eyni zamanda özünü xüsusi-elmi tədqiqat metodlarında təzahür etdirir. Bu metodlar cinayət cəzalarının icrası zamanı yaranan sosial hadisə və proseslərin elmi təhlili üsullarıdır.

«Cəza-icra hüququ» elmi hüquq elminin müxtəlif sahələri ilə sıx əlaqədədir. O, daha çox cinayət hüququ elmi ilə, cinayət nəzəriyyəsi ilə və s. əlaqədədir. Cinayət-prosessual hüququ elmi ilə, xüsusilə də onun hökmün icrası problemlərini öyrənən bölməsi ilə də əlaqələr mövcuddur.

Konstitusiya hüququ elmi özünün bir sıra müddəaları ilə cəza-icra hüququ elminə münasibətdə baza qismində çıxış edir. Bu müddəalar vətəndaşın hüquqi statusuna, qanunçuluğun ümumi məsələlərinə, Azərbaycan Respublikasının dövlət orqanlarının səlahiyyətlərinə, cəzanı icra edən orqanların fəaliyyətinin hüquqi tənziminə aiddir.

Cəza-icra hüququ elmi inzibati hüquq elmi ilə bir sıra ümumi problemlərə malikdir. Bu problemlər cəzanı icra edən müəssisə və orqanların sisteminin idarəçiliyinə, bu müəssisələrin işçi heyətinə, onların xidmət keçməsinə, sosial müdafiəsinə aiddir.

Elmin bu sahəsi mülki, əmək, ailə, təsərrüfat hüququ elmləri ilə də ümumi mövqelərə malikdir. Çünki cəzanı icra edən müəssisə və orqanların fəaliyyət göstərməsi qanunvericiliyin müvafiq sahələri ilə tənzimlənən hüquq tətbiqetmə fəaliyyəti prosesində həyata keçirilir.

«Cəza-icra hüququ» elminin kriminologiya ilə də sıx əlaqəsi mövcuddur. Bu əlaqə müxtəlif müddəalarda özünü göstərir. Burada daha çox bu sahənin bir sıra normalarının kriminoloji cəhətdən əsaslandırılması nəzərdə tutulur. Misal üçün, məhkumların ayrılıqda saxlanması və s. Məhkumların və cəza çəkməkdən azad edilmiş şəxslərin öyrənilməsi üçün kriminoloji təhlil metodundan geniş istifadə edilir. Öz növbəsində cinayətkarlığın xəbərdarlığı problemləri kompleksinin həlli müəyyən mənada cinayət cəzalarının icrasının səmərəliliyi ilə müəyyən olunur.

Məlumdur ki, cəzaların icrası və məhkumların islah olunması prosesi kompleks hüquqi və psixoloji-pedaqoji problemdir. Buna görə də «Cəza-icra hüququ» elminin islah psixologiyası və pedaqogikası ilə qarşılıqlı əlaqəsi labüddür.

Elmin göstərilən hər bir sahəsi digərlərini zənginləşdirir. «Cəza-icra hüququ» elmi hüquq normalarının layihələrinin işlənib hazırlanmasında göstərilən elm sahələrinin məlumatlarından istifadə edir, məhkumların şəxsiyyəti haqqında tədqiqatların nəticələrini fəal surətdə tətbiq edir.

Beləliklə, «Cəza-icra hüququ» elmi - elmin digər sahələri ilə sıx əlaqədə olub, onların nailiyyətlərindən çox geniş surətdə istifadə edərək, özünün qarşısında duran problemləri həll edir.

Ümumiyyətlə, «Cəza-icra hüququ» elminin predmetini aşağıdakılar təşkil edir:

- cəzaların icrası sahəsində dövlət siyasəti;
- cəza-icra siyasətinin, cəza-icra hüququnun və qanunvericiliyinin prinsipləri;
- cəza-icra hüququ normalarının məzmunu və quruluşu;
- cinayət cəzalarının icrası və çəkilməsi zamanı yaranan hüquq münasibətləri;
- cəzaların icrası qanunvericiliyinin və cəzaları icra edən müəssisə və orqanların inkişaf tarixi;
- qanunvericilik sistemi və onun mənbələri;
- xarici ölkələrin cəza-icra (penitensiar) hüququ;
- məhkumlarla davranışa həsr olunmuş beynəlxalq aktlar;
- məhkumların hüquqi vəziyyəti və onların xarakteristikası;
- cəzaları icra edən müəssisə və orqanların sistemi və onların işçi heyəti.

**Cəza-icra hüququ kursunun predmeti və sistemi.** «Cəza-icra hüququ» kursunun predmetini ona müvafiq olan elm sahəsi təşkil edir. Ənənəvi olaraq bu kurs ümumi və xüsusi hissələrə bölünür ki, bu da CİM-in quruluşuna

müvafiqdir. Kursun ümumi hissəsində cəza-icra hüququ nəzəriyyəsinin aşağıdakı ümumi məsələləri öyrənilir:

- Azərbaycan Respublikasının cəzaların icrası qanunvericiliyi;
- məhkumların hüquqi vəziyyəti;
- cəzanı icra edən müəssisə və orqanların sistemi, onların fəaliyyətinə nəzarət və s.

Xüsusi hissə bir neçə bölmədən ibarətdir. Bu bölmələrdə ayrı-ayrı cinayət cəzalarının icrası qaydası və şərtləri, cəzaçəkmə müəssisələrində rejim, bu müəssisələrdə cəzaçəkmə şəraiti, məhkumların əməyi, peşə təhsili və peşə hazırlığı, məhkumlarla tərbiyə işi, müxtəlif növlü cəzaçəkmə müəssisələrində cəzanın icrası, cəza çəkməkdən azad etmənin əsasları və s. öyrənilir.

# N Ə T İ C Ə

Beləliklə, «Cəza-icra hüququ» hüququn digər sahələri kimi özünün müstəqilliyinə malik olub, müəyyən ictimai münasibətlər kompleksini tənzimləyir. Bu ictimai münasibətlər ayrı-ayrı cinayət cəzalarının icrası prosesində məhkumlarla cəzanı icra edən cəzaçəkmə müəssisələri və dövlət orqanları arasında yaranır. Bu hüquq münasibətlərini tənzimləmək üçün «Cəza-icra hüququ» özünün xüsusi normalar sisteminə malikdir.

«Cəza-icra hüququ» özünün nizamasalma predmetinə daxil olan münasibətləri müəyyən prinsiplər əsasında nizama salır. Cəzaların icrası ilə məşğul olan hər bir əməkdaş öz fəaliyyətini məhz bu prinsiplər əsasında təşkil etməli və onlara riayət etməlidir.

## Azərbaycan Respublikasının cəza-icra sistemi:

**I. Cəzaçəkmə müəssisələri – 32.** Onlardan:

1. Ümumi rejimli CÇM – 8;
2. Ciddi rejimli CÇM – 4;
3. Xüsusi rejimli CÇM – 1;
4. Qarışıq rejimli CÇM – 4;
5. Məntəqə tipli CÇM – 15.

**II. Tərbiyə müəssisələri – 1.**

**III. Həbsxanalar – 1.**

**IV. Müalicə müəssisələri – 2.**

## Məhkumların sayı və tərkibi (01.04.2010-cu il tarixinə olan məlumat) 16.850 nəfər. Onlardan:

- müxtəlif rejimli CÇM-də – 13.063 nəfər;
- məntəqə tipli CÇM – 3.575 nəfər. Onlardan:
  - CÇM-dən keçirilmişlər – 2243 nəfər;
  - ehtiyatsızlıqdan cinayət törətmişlər – 1392 nəfər.
- ömürlük azadlıqdan məhrum edilmişlər – 245 nəfər;
- qadınlar – 363 nəfər (YYÇ qız yoxdur);
- yetkinlik yaşına çatmamışlar – 38 nəfər (oğlanlar);
- əcnəbilər – 538 nəfər (28 ölkədən).